# 2018-ci İL – TÜRK DÜNYASI MƏŞHURLARININ ANMA İLİ




Düsen Kaseinov səs çoxluğu ilə yenidən TÜRKSOY-un baş katibi seçildi

Qazaxıstanın Türküstan şəhərində keçirilən TÜRKSOY-un mədəniyyət nazirləri Daimi Şurasının 35-ci toplantısında ölkəmiz və bütün türk dünası üçün əlamətdar qərarlar qəbul olunub.

Tədbirin yekun bəyannaməsində Azərbaycan, Qazaxıstan və Qırğızıstanın təklifi ilə 2018-ci ilin Azərbaycan bəstəkarı Qara Qarayev, qazax xalq şairi Mağjan Jumabayev və qırğız yazıçısı Çingiz Aytmatovun xatirəsini "Anma ili" elan edilməsi qərara alınıb.

Bəyannamədə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının və Türkdilli Ölkələrin Parlament Assambleyası (TürkPA) mütəxəssislərinin bir araya gələrək işçi qrupunun yaradılması, həmin işçi qrupunun hazırladığı dəyişikliklərin növbəti daimi şura toplantısında imzalanması qərara alınıb.

TÜRKSOY-un 2018-ci ilin fəaliyyət proqramının da qəbul olunduğu iclasda qurumun baş katibi Düsen Kaseinov səs çoxluğu ilə yenidən təşkilatın baş katibi seçilib.

Qeyd edək ki, Türküstanda "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi çərçivəsində türk xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə yönəlmiş 40-dan çox tədbir keçirilib. ❖



Qara Qarayev



Çingiz Aytmatov



Mağjan Jumabayev